TƏSDİQ EDİRƏM:

Azərbaycan Respublikasında Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın sədri, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

"________________________" Sahil Babayev

"________" iyun 2023

Azərbaycan Respublikasında Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın 2023-cü il üçün

# İŞ PLANI

| Sıra №-si | Müzakirəyə çıxarılan məsələlər | Baxılma vaxtı | Məsul icraçı | Əsas məruzəçilər |
|---|---|---|---|---|
| 1. | Əmək müqaviləsində, ona xitam verilməsi barədə tərəflərin qarşılıqlı razılığı ilə işdənçıxma müavinətini ödəməklə əmək müqaviləsinə xitam verilməsi hallarını nəzərdə tutan normaların qanunvericiliyə daxil edilməsi ilə bağlı "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu layihəsi | İyun | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Fuad Heydərov – Nazirliyin Aparatının Əmək siyasəti şöbəsinin müdiri |
| 2. | Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin, | İyun | Azərbaycan Respublikası | Xəqan Hümmətzadə – ASK-nın Hüquq və sosial |

| | | | | |
|---|---|---|---|---|
| | əmək stajı olmayan gənclərin və digər qrup şəxslərin məşğulluğunun təmin edilməsi məqsədilə "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununa dəyişikliklər edilməsi ilə bağlı təkliflər | | Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | tərəfdaşlıq şöbəsinin müdiri, Üçtərəfli Komissiyanın əlaqələndiricisi |
| 3. | Uşaqların müəssisəyə düşməsinin qarşısının alınması, habelə müəssisələrdə məskunlaşan uşaqlarla bağlı fərdi inkişaf planlarının hazırlanması prosesində sosial tərəfdaşların iştirakının təmin edilməsi ilə bağlı təkliflər | İyun | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Fərhad Ələkbərov – Nazirliyin Aparatının Övladlığagötürmə siyasəti şöbəsinin müdiri |
| 4. | İstehsalatda baş verən bədbəxt hadisələrin statistik hesabatları nəzərə alınaraq sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üçün müvafiq qabaqlayıcı tədbirlərin görülməsi və qeyri-formal məşğulluqla mübarizə sahəsində işəgötürənlər və işçilər üçün maarifləndirici tədbirlərin həyata keçirilməsində birgə əməkdaşlığın həyata keçirilməsi | İyun | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Vəli Quliyev – DƏMX-in rəisi |
| 5. | Sahibkarlıq fəaliyyəti ilə məşğul olan işəgötürənlər tərəfindən məcburi dövlət sosial sığortası üzrə rüblük hesabatların (vahid bəyannamə) vaxtında və düzgün qaydada təqdim edilməməsi, eyni dövr üçün il ərzində bir neçə dəfə dəqiqləşdirilmiş hesabatların təqdim olunması nəticəsində sığortaolunanların sosial müdafiə və pensiya hüquqlarının pozulması | Avqust – sentyabr | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Himalay Məmişov – Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri |

| | | | | |
|---|---|---|---|---|
| | kimi halların yaranmasına səbəb olan uyğunsuzluqlar | | | |
| 6. | Azərbaycan Respublikası Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası arasında 2023-2025-ci illər üçün bağlanmış Baş Kollektiv Sazişin ilk yarımillik dövrünün Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası tərəfindən görülmüş işlərin icrası vəziyyəti | Avqust – sentyabr | Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | Xəqan Hümmətzadə – ASK-nın Hüquq və sosial tərəfdaşlıq şöbəsinin müdiri, Üçtərəfli Komissiyanın əlaqələndiricisi |
| 7. | Tikinti sahəsində işçi qüvvəsinə dair vahid elektron informasiya ehtiyatının yaradılması ilə bağlı qanunvericilik layihələri | Avqust – sentyabr | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Rəşad Dayıyev – Nazirliyin Aparatının Məşğulluq siyasəti və demoqrafik inkişaf məsələləri şöbəsinin müdiri |
| 8. | “Müxtəlif növ sahibkarlıq subyektləri üçün nümunəvi kollektiv müqavilə” haqqında təkliflər | Avqust – sentyabr | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası | Arif İbrahimov – Zəhmətkeşlərin əməyinin və sosial-iqtisadi mənafelərinin müdafiəsi şöbəsinin baş mütəxəssisi |
| 9. | Xidmət tərəfindən sahibkarlıq sahəsində yoxlamaların həyata keçirilməməsinin işçilərin | Avqust – sentyabr | Azərbaycan Respublikasının Əmək | Elməddin Kazımov – DƏMX-in Əmək |

| | | | | |
|---|---|---|---|---|
| | həyat və sağlamlığına və təhlükəsizliyinə təhlükə yaradan hal olduğunu nəzərə alaraq yoxlama aparan qurumların siyahısına DƏMX-in əlavə edilməsi məqsədilə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə" Azərbaycan Respublikasının Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanına dəyişiklik edilməsi ilə bağlı Komissiyanın rəyi əsasında Nazirlik adından Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət olunması | | və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | qanunvericiliyinin pozulmasına nəzarət və yoxlamalar şöbəsinin müdiri |
| 10. | Davamlı sosial dialoq mexanizmlərinin minimum şərti olan etimad münasibətlərini gücləndirmək üçün çərçivə sazişləri təcrübəsinin inkişaf etdirilməsi | Avqust – sentyabr | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Rövşən Camalov – DMA-da Əmək bazarının təhlili şöbəsinin baş mütəxəssisi |
| 11. | Uşaqlı qadınların iş vaxtı müddətinin tənzimlənməsi və iki təqvim həftəsi müddətində məzuniyyət günlərinin başqa vaxta keçirilməsini məhdudlaşdıran normalar barədə qanunvericiliyə dəyişikliklərin edilməsi ilə bağlı layihələr | Avqust – sentyabr | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Fuad Heydərov – Nazirliyin Aparatının Əmək siyasəti şöbəsinin müdiri |

| | | | | |
|---|---|---|---|---|
| 12. | Yarana biləcək böhran vəziyyətlərində (iqtisadi böhran, pandemiya və s.) aztəminatlı və yoxsulluğa həssas təbəqənin sosial müdafiəsinin yaxşılaşdırılması üçün mexanizmlərin hazırlanması | Noyabr – dekabr | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Babək Hüseynov – Nazirliyin Aparatının Sosial təminat siyasəti şöbəsinin müdiri |
| 13. | 2023-2025-ci illər üçün bağlanmış Baş Kollektiv Sazişdə nəzərdə tutulmuş "İşəgötürənlər və sahibkarlar birlikləri haqqında" və "Sosial tərəfdaşlıq haqqında" Azərbaycan Respublikası Qanun layihəsinin müzakirəsi, müvafiq sahələrdə (əmək münasibətləri, təhsil, iqtisadi siyasət və s.) qeyri-dövlət işəgötürənlərin təmsilçiliyinin və iştirakçılığının gücləndirilməsi imkanları | Noyabr – dekabr | Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | Vüqar Zeynalov – ASK-nın vitse-prezidenti, Üçtərəfli Komissiyanın üzvü<br><br>Xəqan Hümmətzadə – ASK-nın Hüquq və sosial tərəfdaşlıq şöbəsinin müdiri, Üçtərəfli Komissiyanın əlaqələndiricisi |
| 14. | AR Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və AR Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası arasında 2023-2025-ci illər üçün bağlanmış Baş Kollektiv Sazişə dair Tədbirlər planının icrası ilə bağlı ƏƏSMN, AHİK və ASK tərəfindən görülmüş işlər | Noyabr – dekabr | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br><br>Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası<br><br>Azərbaycan Respublikası | Fuad Heydərov – Nazirliyin Aparatının Əmək siyasəti şöbəsinin müdiri<br><br>Namiq Hüseynov – AHİK-nın Zəhmətkeşlərin mədəni-məişət problemləri üzrə analitik tədqiqat şöbəsinin müdiri<br><br>Xəqan Hümmətzadə – ASK-nın Hüquq və sosial |

| | | | | |
|---|---|---|---|---|
| | | | Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | tərəfdaşlıq şöbəsinin müdiri, Üçtərəfli Komissiyanın əlaqələndiricisi |
| 15. | Çətin həyat şəraitində olan şəxslərin keyfiyyətli sosial xidmətlərə əlçatanlığının təmini, müasir tələblərə cavab verən sosial xidmət sisteminin, bu sahədə ixtisaslı kadr potensialının yaradılması, müvafiq beynəlxalq standartların və innovativ texnologiyaların tətbiqi | Noyabr – dekabr | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Babək Hüseynov – Nazirliyin Aparatının Sosial təminat siyasəti şöbəsinin müdiri |
| 16. | Beynəlxalq Əmək Təşkilatının (BƏT) "Əməyin təhlükəsizliyi və sağlamlığının təşviqinin əsasları haqqında" 187 nömrəli Konvensiyasının Azərbaycan Respublikası tərəfindən ratifikasiya imkanlarının araşdırılması | Noyabr – dekabr | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası | Namiq Hüseynov – AHİK-nın Zəhmətkeşlərin mədəni-məişət problemləri üzrə analitik tədqiqat şöbəsinin müdiri |
| 17. | Azərbaycan Respublikası tərəfindən ratifikasiya olunmuş Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 28-ci maddəsi üzrə Həmkarlar ittifaqı orqanlarının öz əmək funksiyasının icrasından azad edilməyən üzvlərinə bir sıra təminatların (öz əmək funksiyasının icrasından azad edilmiş üzvlərinə münasibətdə tətbiq olunan, əvvəlki vəzifəsinin, bu mümkün olmadıqda öz razılığı ilə əvvəlki vəzifəsinə bərabər işin verilməsi, bu mümkün olmadıqda isə işə düzələcəyi dövr üçün, lakin 6 aydan artıq olmayan müddətdə orta əmək haqqının | Noyabr – dekabr | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Fuad Heydərov – Nazirliyin Aparatının Əmək siyasəti şöbəsinin müdiri |

| | | | | |
|---|---|---|---|---|
| | saxlanılması kimi təminatların) şamil edilməsi məsələsinə baxılması | | | |

“Razılaşdırılmışdır”

Hökumət adından:

Azərbaycan Respublikasının
əmək və əhalinin sosial müdafiəsi nazirinin müşaviri,
Üçtərəfli Komissiyanın əlaqələndiricisi

“______________” Əbülfət Məhərrəmov

“______” iyun 2023-cü il

“Razılaşdırılmışdır”

İşçilər adından:

Azərbaycan Həmkarlar İttifaqları
Konfederasiyasının katibi, aparat rəhbəri,
Üçtərəfli Komissiyanın əlaqələndiricisi

________________” Həsən Cəfərov

“_____” iyun 2023-cü il

“Razılaşdırılmışdır”

İşəgötürənlər adından:

Azərbaycan Respublikası Sahibkarlar
(İşəgötürənlər) Təşkilatlarının Milli
Konfederasiyasının şöbə müdiri,
Üçtərəfli Komissiyanın əlaqələndiricisi

“____________” Xəqan Hümmətzadə

“_____” iyun 2023-cü il

Qeyd: 1. Azərbaycan Respublikasında Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın 2023-cü il üçün iş planına Komissiya üzvlərinin təklifi əsasında əlavələr edilə bilər.

2. İş planında nəzərdə tutulan məsələlər üzrə materiallar əsas məruzəçi tərəfindən bir ay qabaqcadan Azərbaycan Respublikasında Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın Katibliyinə elektron formatda sim3tk@sosial.gov.az elektron ünvanına təqdim olunmalıdır.